# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 12 (1514), 12 - 18 aprel 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.




# Prezident İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edib

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Salaməleykum, əyləşin.

Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmişlər, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Əlbəttə ki, bir daha Azərbaycan güləşçiləri bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır.

*(ardı 2-ci səhifədə)*

## *Azərbaycan Güləş Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Böyüklər arasında sərbəst və yunan-Roma güləşçilərinin komanda hesabında Azərbaycan millisinin 2022-ci il Avropa çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Güləş Federasiyasına 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 aprel 2022-ci il*

## 32 ölkənin bədii gimnastları paytaxtımızda bir araya gələcəklər

Aprelin 22-dən 24-dək gimnastika ictimaiyyətinin diqqəti bir daha Azərbaycanın paytaxtı Bakıya cəmlənəcək. Belə ki, dünyanın ən güclü bədii gimnastları bu dəfə ölkəmizdə təşkil olunacaq dünya kuboku yarışlarında bir araya gələcəklər. Azərbaycanın gimnastika növləri üzrə bu il ev sahibliyi edəcəyi beşinci beynəlxalq yarışda qeydiyyat siyahısına əsasən 32 ölkədən 40-ı fərdi və 60-ı qrup komandasının (10 qrup) üzvü olmaqla 100 gimnastın iştirakı gözlənilir. Üç gün davam edəcək yarışda gimnastlar ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaqlar. Ənənəyə uyğun olaraq, turnirdə ən çox icra xalını yığmış gimnast və qrup komandasına ənənəvi "AGF Trophy" kuboku da təqdim olunacaq. Qeyd edək ki, bu, ölkəmizdə bədii gimnastika üzrə təşkil olunacaq doqquzuncu dünya kuboku yarışları olacaq.




Xatırladaq ki, paytaxtımız 2005-ci və 2019-cu illərdə bu növ üzrə dünya çempionatına ev sahibliyi edib.




## Ağırlıqqaldıranlar ikiillik fasilədən sonra yenidən Azərbaycan çempionatında yarışıblar

Aprelin 9-10-da Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasının yarış zalında kişilər və qadınlar arasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı keçirilib. Azərbaycan Gənclər və İdman Nazirliyi və Azərbaycan Ağır Atletika Federasiyasının birgə təşkil etdiyi yarışda ölkənin bütün bölgələrindən 100-dən çox atlet qüvvəsini sınayıb.

Azərbaycan çempionatının açılış mərasimində Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev, Ağır Atletika Federasiyasının prezidenti İnam Kərimov və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

## Anons

**Fərid Qayıbov:**

"Mart ayı uğurlar və yeniliklərlə zəngin oldu"

Səh. 3




## 1/4 final cavab görüşü

**12 aprel, saat 23:00**

***"Bayer Münhen" (Almaniya) - "Vilyareal" (İspaniya)***
Münhen, "Alians Arena" stadionu

**"Real Madrid" (İspaniya) - "Çelsi" (İngiltərə)**
Madrid, "Santyaqo Bernabeu" stadionu




## DÇ-2022: ehtiyat, iddia, risk və məqsəd

Səh. 7

# Prezident İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edib

*(əvvəli 1-ci səhifədə)*

Bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim, yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Mən onları da gənclər arasında Avropa çempionatında birinci yerlə bağlı ürəkdən təbrik edərkən demişdim ki, onlar gələcəkdə də bizi sevindirməlidirlər, böyüklər arasındakı yarışlarda çıxış edərkən bu uğurları təkrar etməlidirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır.

Əminəm ki, böyüklər arasında keçirilmiş çempionatda bizim idmançılarımız da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxırdılar və bu yüksək məsuliyyəti dərk edirdilər. Çünki doğrudan da, cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı.

Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır. Əminəm ki, Azərbaycan vətəndaşları - həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki sevinirik ki, siz buna nail olmusunuz. Bu, sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul - Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik. Çünki gənc nəsil yetişir, gənclər Vətəni layaqətlə təmsil edirlər, hərə öz yerində, idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır.

Güləş, qeyd etdiyim kimi, hər birimiz üçün çox əziz idman növüdür, yəqin ki, Azərbaycanda ən populyar, ən məşhur idman növüdür. Ona görə həm məşqçilər, həm idman federasiyasının nümayəndələri, Gənclər və İdman Nazirliyi bu amili nəzərə alaraq güləşə, əlbəttə ki, xüsusi diqqət verməlidirlər. Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə iki ildən sonra Yay Olimpiya Oyunları keçiriləcək. Vaxt az qalıb və hesab edirəm ki, nəinki güləş, eyni zamanda, bütün idman növlərində lisenziya qazanacaq idmançılar bu əsas yarışa indidən hazırlaşmalıdırlar, düzgün təlim-məşq toplanışları, yarışlar müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq və Yay Olimpiya Oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik. Çünki Olimpiya Oyunları, Yay Olimpiya Oyunları bütün idman yarışları arasında, əlbəttə ki, xüsusi yer tutur, fərqlənir. Hesab edirəm ki, bütövlükdə növbəti Olimpiya Oyunlarında Azərbaycan çox uğurla çıxış edə bilər. İndidən bir şey deyə bilmərəm, çünki hələ iki il vaxt var, amma gərək bütün səylərimiz məhz bu məqsədə çatmaq üçün hesablansın. Bir məsələ də var ki, artıq biz bu qələbələrə öyrəşirik və necə deyərlər, bu yüksək nəticələri saxlamaq çətin olacaq, idmanda hər şey ola bilər - məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda nəticələrə baxmayaraq əsas odur ki, idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil edirlər. Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, gördüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə. Dinc insanlara qarşı terror əməlinə əl atmışdır. Bizim şəhərlərimiz, dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutuldu, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak oldu. Amma mən o vaxt demişdim, hələ müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik. Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar. Mən keçirilmiş Avropa çempionatında da eyni xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti. Ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, bundan sonra da istənilən idman növündə. Misal üçün, biz indi bunu futbol yarışlarında da gördük. Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etmişdir və qol sayıla biləcək vəziyyətdə demişdir ki, yox, bu, bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil. Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq. O cümlədən Qarabağ məsələsini də öz əməyimizlə, gücümüzlə, zəkamızla həll etmişik. İdman yarışlarında, yəni, feyrpley anlayışı unudulmamalıdır və Azərbaycan idmançıları bu prinsiplərə həmişə əməl etməlidirlər. Çünki bu, qələbədən də vacibdir. Çünki bilirsiniz, qələbə, əlbəttə, hər bir idmançı üçün çox önəmlidir, onun həyatında, necə deyərlər, böyük iz buraxır. Ancaq qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq. Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz. Həm qələbə münasibətilə, həm ləyaqətli davranış münasibətilə sizi təbrik edirəm. Əlbəttə ki, biz hamımız, bütün Azərbaycan xalqı sizdən yeni qələbələr gözləyir. Sağ olun.

Sərbəst güləş üzrə Azərbaycan milli komandasının baş məşqçisi **Namiq Abdullayev** dedi:

- Hörmətli Prezident, əvvəlcə bizi növbəti dəfə dəvət etdiyiniz və bizimlə yenidən görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümüzü bildirirəm. Bildiyiniz kimi, güləş üzrə milli komandalarımız son bir ayda iki Avropa çempionatında ölkəmizi uğurla təmsil ediblər. Bolqarıstanda keçirilən 23 yaşadək güləşçilərin Avropa çempionatının ardınca Macarıstanda keçirilən böyüklərin Avropa çempionatında da yüksək nəticələr qazanılıb. Komandalarımız ümumilikdə 3 qızıl, 6 gümüş və 7 bürünc medal qazanıb. Həm sərbəst, həm də yunan-Roma güləşi üzrə milli komandalarımız komanda hesabında Avropa çempionu olub. İki komandamızın eyni vaxtda Avropa çempionu olması güləş tariximizdə yeni rekorddur. 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz güləşçilərimiz üçün böyük stimul oldu. Bunun da nəticəsi olaraq böyüklərin Avropa çempionatında yüksək nəticə qazana bildik. Qarşıda bizi mötəbər yarışlar gözləyir. Bu il İslam Həmrəyliyi Oyunlarında, dünya çempionatında və dünya kubokunda ölkəmizi uğurla təmsil etmək üçün əlimizdən gələni edəcəyik.

Möhtərəm Prezident, bizi qəbul edib daim bizə diqqət və qayğı göstərdiyiniz üçün Sizə bütün güləş ailəsi adından bir daha təşəkkürümüzü bildirirəm. Diqqətinizə görə sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

Sərbəst güləş üzrə üçqat dünya çempionu, ikiqat Olimpiya mükafatçısı **Hacı Əliyev** dedi:

- Cənab Prezident, mən də öz adımdan, həm də sərbəst güləş yığma komandasının adından bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Bildiyiniz kimi, Macarıstanda keçirilən Avropa çempionatında sərbəst güləşçilərimiz uğurlu nəticələr əldə etdilər. Ümumilikdə 7 medal qazandıq, bunlardan 1-i qızıl, 4-ü gümüş, 2-si isə bürünc medal oldu və biz medal sayına görə komanda hesabında birinci olduq. Sözsüz ki, bu uğurlarımız, bu qələbələrimiz Sizin idmana diqqət və qayğınızın nəticəsidir ki, bu gün belə gözəl nailiyyətlər qazandıq. Eyni zamanda, biz Güləş Federasiyasının da diqqət və qayğısını hər zaman hiss etmişik. Biz belə diqqət və qayğı sayəsində çalışacağıq ki, hər zaman gözəl nəticələr əldə edək.

Cənab Prezident, mənim əsas hədəflərimdən biri Parisdə keçiriləcək Olimpiya Oyunlarında iştirak etmək, qızıl medal qazanmaqdır. Siz bilirsiniz ki, mən iki dəfə Olimpiya Oyunlarında medal qazanmışam - bir gümüş, bir bürünc. Artıq mənə elə gəlir ki, qızıl medal qazanmağın vaxtıdır. Mən inanıram ki, Parisdə keçiriləcək Olimpiya Oyunlarında bizim gənc güləşçilərimiz də, burada olan güləşçilərimiz də yaxşı nəticələr qazanacaqlar İnşallah və medallarımızın sayını daha da çoxaldacaqlar. Sizə gələcək işlərinizdə uğurlar arzu edirəm, Allahdan Sizə uzun ömür, cansağlığı arzulayıram. Çox sağ olun diqqətinizə görə.

**Prezident İlham Əliyev:** Sağ ol, sağ ol Hacı, əyləş. Mən hesab edirəm ki, sən artıq Olimpiya Oyunlarının qızıl medalını qazanmısan. Çünki sən üçqat dünya çempionusan və dünya çempionatı da Olimpiya Oyunları ilə eyni səviyyəli yarışdır. Bəlkə də Olimpiya Oyunları daha həyəcanlı bir yarışdır, çünki 4 ildən bir keçirilir və bütün dünya ictimaiyyətinin diqqəti oradadır. Amma təmsilçilik baxımından və rəqabət baxımından dünya çempionatları ondan geri qalmır. Ona görə sənin üç qızıl medalın var dünya çempionu kimi. İndi təvazökar insan kimi bir medal taxmısan, amma sənin medalların nə qədərdir, bəlkə özün də sayını itirmisən. Yadındadır nə qədər medalın var sənin?

**Hacı Əliyev:** Çoxdur.

**Prezident İlham Əliyev:** İndi üç dünya çempionu medalı, ondan sonra Olimpiya, üç dəfə Avropa çempionu. Ona görə sən bütün medalları taxsan sinəndə yer qalmaz. Biz hər bir idmançıdan qələbə gözləyirik. Amma əsas odur ki, yarışda iştirak edəcəksən. Mən bilirəm ki, sən son Olimpiya Oyunlarında bir az tərəddüd edirdin gələcək fəaliyyətinlə bağlı. Amma yaxşı ki, qalmısan idmanda. Sən lazımsan həm idmana, həm gənclərə və doğrudan da gənclər üçün, gənc idmançılar üçün bir nümunəsən. Çünki üçqat dünya çempionu olmaq doğrudan da tarixi nailiyyətdir. Ona görə səni bir daha təbrik edirəm.

Yunan-Roma güləşi üzrə ikiqat Avropa çempionu və dünya çempionu **Eldəniz Əzizli** dedi:

- Möhtərəm Prezident, mən də yunan-Roma güləşi milli komandası adından bizim qazandığımız qələbələri yüksək qiymətləndirdiyiniz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Bildiyiniz kimi, Budapeştdə keçirilən Avropa çempionatında yarışa qatılan 10 idmançımızdan 8-i medalla Vətənə qayıtdı. Onlardan iki qızıl medal, bir gümüş və beş bürünc medalla ümumilikdə 165 xal toplayaraq yunan-Roma güləşi tarixində yeni bir rekorda imza atdıq. İlk dəfə idi ki, yunan-Roma güləşi millimiz komanda hesabında Avropa çempionu oldu. Həqiqətən də bu yarış bizim üçün rekordlarla əlamətdar bir yarış oldu.

Cənab Prezident, Sizin idmana və idmançılara göstərdiyiniz diqqət və qayğı bizi həvəsləndirir, gələcək yarışlara daha da ruhlandırır. Bildiyiniz kimi, noyabrın 5-6-da Bakıda yunan-Roma güləşi üzrə dünya kuboku keçiriləcək. Biz ilk dəfə 2015-ci ildə İran İslam Respublikasının Tehran şəhərində dünya kubokunun sahibi olmuşduq. Artıq son qələbəmizdən 7 il keçir. Düşünürəm ki, İnşallah biz idmançılar əlimizdən gələni etməyə çalışıb 7 ildən sonra qazandığımız parlaq qələbəni Bakıda təkrarlayacağıq və var gücümüzlə çalışacağıq ki, kubok Bakıda qalsın, Bakıdan qıraığa getməsin. Bizi qəbul etdiyiniz üçün bir daha Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol, çox sağ ol. Eldəniz də bizim görkəmli idmançılarımızdandır, ikiqat dünya çempionu, Avropa çempionu. Ona görə əminəm ki, gələcəkdə də bizi sevindirəcək.

Yunan-Roma güləşi üzrə Azərbaycan milli komandasının baş məşqçisi **Aleksandr Tarakanov** dedi:

- Hörmətli Prezident, mənim işimi yüksək qiymətləndirdiyinizə və məni "Tərəqqi" medalı ilə təltif etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. İlham Heydər oğlu, bu medalda Sizin qəlbinizin bir hissəsi də var. Siz idman üçün, gənclər üçün nə lazımdırsa edirsiniz ki, biz çalışaq, cəhd göstərək, qalib gələk və ölkəmizi şöhrətləndirək. Sağ olun. Sizə möhkəm cansağlığı arzu edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Medalınız mübarəkdir. Siz onu öz işinizlə, bizim hamımızı sevindirən nəticələrlə qazanmısınız. Hamınıza yeni qələbələr, yeni uğurlar arzu edirəm. Sağ olun.

# Fərid Qayıbov: “Mart ayı uğurlar və yeniliklərlə zəngin oldu”

***Mart ayı gənclər və idman sahəsində hadisələrlə zəngin, fəaliyyətlə dolğun olub. Strateji istiqamətlərin müəyyən edilməsi, təsir alətlərinin gücləndirilməsi və institusional inkişaf, beynəlxalq əməkdaşlığın genişlənməsi istiqamətlərində addımlar atıldı.***

***Bu fikirlər gənclər və idman naziri Fərid Qayıbovun qeydlərində əksini tapıb.***




F.Qayıbov bildirib ki, martın 5-6-da 43 ölkədən 140 nümayəndənin iştirakı ilə Beynəlxalq Etnoidman Forumu baş tutdu. Forumun ilk günündə Azərbaycan Prezidenti İlham Əliyev Dünya Etnoidman Konfederasiyasının prezidenti Bilal Ərdoğanı qəbul etdi. İdmana - xalqları birləşdirən vasitəyə göstərdiyi diqqətin rəmzi kimi dövlətimizin başçısına beynəlxalq qurumun ali mükafatı təqdim edildi. Forum çərçivəsində Dünya Etnoidman Konfederasiyası ilə Gənclər və İdman Nazirliyi arasında ənənəvi idman növlərinin inkişafına dair anlaşma memorandumu imzalandı. Həmçinin bir neçə beynəlxalq təşkilat rəhbərləri və bir sıra ölkələrin idman nazirləri ilə görüşlər keçirdik.

Martın 17-də ölkə başçısı İlham Əliyevin 23 yaşadək güləşçilər arasında Bolqarıstanda keçirilmiş yeddinci Avropa çempionatının qaliblərini qəbul etdiyini bildirən nazir vurğulayıb: “Bu, təkcə güləşdə deyil, idmanın bütün növlərində nəticəyə köklənmiş fəaliyyətin gücləndirilməsinə təsir edən bir görüş oldu. İdmançılar üçün güclü motivasiya olan bu qəbuldan sonra böyüklərdən ibarət komandamız da yüksək nəticə əldə etdi. Tarixində ilk dəfə olaraq həm sərbəst, həm də yunan-Roma güləşi üzrə komandalarımız eyni çempionatın ən yaxşısı oldular. Sözsüz ki, hər bir uğurun arxasında çətin məşqlər, əziyyət, zəhmət dayanır. Qitənin 37 ölkəsinin təmsil olunduğu çempionatda uğur qazanan hər iki komandamızın ən yaxşı olmasına yalnız sevinməliyik. Çünki qitənin ən güclüsü bizim ölkədir, bizim ölkə birincidir! Bu nailiyyətə görə idmançılarımızı və məşqçilərimizi bir daha təbrik edir və möhtəşəm qələbəyə görə təşəkkür edirəm”.

F.Qayıbov qeyd edib: “Qələbələr sırasında Xorvatiyanın Poreç şəhərində 22 yaşadək boksçular arasında keçirilmiş Avropa çempionatında komandamızın uğurlu çıxışını da vurğulamalıyıq. Martın 30-da nazirlikdə komandamızla görüşdük və onları təbrik edib, yeni uğurlar arzuladıq. İdmançıların uğur qazanmasında federasiyaların peşəkar idarə edilməsi də mühüm rol oynayır. Bu ay nazirliyin Kollegiya qərarı ilə daha 6 federasiyanın statusu təsdiq edildi və belə federasiyaların sayı 17-yə çatdı. On dörd federasiyanın statusu dayandırıldı və belə federasiyaların sayı 19 oldu. Təkmilləşdirmə siyasətinin davamlı olması üçün bütün federasiyaların statusuna baxılma prosesi davam etdirilir”.

İdmanda nailiyyətlərin idmançıların sağlamlığı ilə sıx əlaqəli olduğunu vurğulayan nazir bildirib: “Martın 16-da Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutunda çalışan mütəxəssislərlə görüşdə burada yaradılmış şərait, gələcək fəaliyyət müzakirə edildi. Bu mərkəz idmançılarımızın sağlamlığının daimi yoxlanması, zədələrin qarşısının alınması, zədə sonrası bərpa prosesi və idmançıların nəticələrinin yaxşılaşdırılması istiqamətində diaqnostik qiymətləndirmənin aparılması üzərində çalışır. İnklüziv cəmiyyətin əyani nümayişi kimi martın 31-də Bakı Olimpiya Stadionunda əlil futbolçular arasında keçirilən “Qarabağ” - “Abşeron” yoldaşlıq görüşünü izlədik. Həmin gün “Limak Fitness Park”da fitnes zalının fəaliyyəti ilə tanış olduq, burada məşq edən gənclərlə söhbət etdik. Gənclərin sağlamlığı və zərərli vərdişlərdən uzaqlaşmasında fitnes zallarının rolunu qeyd etmək lazımdır”.

Fərid Qayıbov: “Martın 11-də Tovuz şəhərində Tovuz, Qazax və Ağstafa rayonlarından olan vətəndaşların qəbulu keçirildi. Həmin gün Tovuz şəhərində “Gənclər Paytaxtı”nın açılış mərasimində də iştirak etdik. Tovuz Gənclər Evində baş tutan tədbirdə “Gənclər Paytaxtı”nda 2022-ci il ərzində keçiriləcək çoxsaylı tədbirlər haqqında məlumat verildi. Əminəm ki, Tovuzda il ərzində gənclər sahəsində keçiriləcək tədbirlər region gənclərinin inkişafı üçün yeni imkanlar yaradacaq. Gəncə şəhəri, Ağstafa, Goranboy, Göygöl, Qazax, Tovuz, Ucar və Şəmkir rayonlarında Gənclər Evləri, Olimpiya İdman kompleksləri və digər infrastruktur ilə tanış olduq. Müəssisələrin daha səmərəli işləməsi üçün potensial imkanlar və qarşıya çıxan maneələr müzakirə edildi. Səfər çərçivəsində ənənəyə uyğun olaraq, region gəncləri ilə də görüşdük. Gənclərin iştirakçılığının artırılması, zərərli vərdişlərdən qorunması, asudə vaxtın səmərəli təşkili, məşğulluğu, təşəbbüslərin dəstəklənməsi, mövcud imkanlardan istifadəsi və digər məsələlər barədə gənclərin fikirlərini öyrəndik və faydalı müzakirələr apardıq”.

F.Qayıbov qeyd edib ki, martın 26-da Parisdə, UNESCO-nun Baş direktorunun müavini Qabriela Ramos ilə görüşdüm. UNESCO-nun “Gənclər COVID-19-un tədqiqatçıları kimi” adlı yüksək səviyyəli siyasi konfransda iştirak etdim. Ötən ay Gənclər və İdman Nazirliyinin yeni loqosu və brendinqinin təqdimatı keçirildi. İctimaiyyətdən çox sayda fərqli rəylər almaqdan məmnun olduq. Baharın gəlişi ilə əlamətdar olan mart ayı uğurlar və yeniliklərlə zəngin oldu. İnanırıq ki, bütün bunlar qarşıdakı aylarda da uğura doğru inamla addımlamağa əsas yaradacaq.

## Gürcüstan Basketbol Federasiyasının rəhbərliyi ilə görüş keçirilib

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov Gürcüstan Basketbol Federasiyasının rəhbərliyi ilə görüşüb. İki ölkə arasında idman əlaqələrinin əhəmiyyətindən danışan nazir qonağa Azərbaycanda son illərdə keçirilən idman siyasəti barədə məlumat verib. Görüş zamanı ölkələrimiz arasında ikitərəfli idman əlaqələrinin inkişaf perspektivləri müzakirə edilib. Eyni zamanda, basketbol üzrə birgə təlim-məşqlərin təşkilinin mümkünlüyü qeyd olunub.

## Azərbaycan və İsrail arasında idman sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov İsrailin turizm naziri Yoel Razvazov ilə görüşüb. Görüş zamanı iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən gənclər və idman istiqamətlərində əməkdaşlıq məsələləri müzakirə edilib.

Nazir Fərid Qayıbov qonağa Azərbaycan idmanında son illər görülən işlər və əldə olunan uğurlar barədə məlumat verərək bildirib ki, bu sahədə əməkdaşlıq, xüsusən də, birgə təlim-məşqlər hər iki tərəf üçün faydalı ola bilər. Qeyd olunub ki, Azərbaycan və İsrail arasında mövcud əməkdaşlığın genişləndirilməsinə, idman əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsinə ehtiyac var.

Sonda iki ölkə arasında idman sahəsində əməkdaşlıq haqqında “Birgə bəyannamə” imzalanıb. Sənədi Azərbaycan tərəfindən gənclər və idman naziri F.Qayıbov, İsrail tərəfindən isə turizm naziri Y.Razvazov imzalayıblar.

## Ağırlıqqaldıranlar ikiillik fasilədən sonra yenidən Azərbaycan çempionatında yarışıblar

*(əvvəli 1-ci səhifədə)*

Tədbirdə çıxış edən Ç.Hüseynzadə Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb. O qeyd edib ki, ölkəmizdə bu sahənin inkişafı üçün hər bir şərait yaradılıb: “Müəyyən fasilədən sonra ağırlıqqaldırma üzrə yarış keçirilir. Bu fasilə pandemiya səbəbindən baş vermişdi. Son vaxtlar Azərbaycanda bir sıra idman növləri üzrə yarışlar və tədbirlərin keçirilməsinə start verilib. Müxtəlif federasiyalarda yeni rəhbərlər müəyyənləşib. Bu, AAAF-ın yeni rəhbərliyi ilə ilk yarışdır və inanıram ki, ağırlıqqaldırma yenidən ölkəmizdə qabaqcıl idman növlərindən biri kimi yerini tutacaq”.

Ç.Hüseynzadə bu il Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini qeyd edib: “Həmin yarışda bu idman növündə yüksək səviyyədə təmsil olunmaq istəyirik. Bütün idmançılara uğurlar arzulayıram”.

İkiillik fasilədən sonra yenidən ölkə çempionatının bərpa olunduğunu bildirən İ.Kərimov deyib: “Dövlətimizin diqqət və qayğısı nəticəsində artıq yarışlarımızı bərpa edirik. Bu turnirlər idmançılar qarşısında böyük imkanlar açır. Ağırlıqqaldırma Azərbaycanda idmanın əsas sahələrindən biridir və bu növdə gözləntilərimiz böyükdür. Ən əsası bu sahəyə yeni nəsil idmançıları cəlb etməkdir. Hər bir idmançıya Azərbaycan çempionatında uğurlar arzu edirəm. Düşünürəm ki, buradan başlayan estafet dünya arenalarında davam edəcək və beynəlxalq yarışlarda himnimiz səslənəcək”.

Daha sonra Çingiz Hüseynzadə, Azər Əliyev və İnam Kərimov qadınların yarışında medal qazanan ağırlıqqaldıranları mükafatlandırıblar.

AAAF-ın mətbuat xidmətindən aldığımız məlumata görə, çempionatın təşkilində əsas məqsəd ağırlıqqaldırma idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafına dəstək verilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirən idmançıların seçilməsi, kişilərdən və qadınlardan ibarət milli komandaların tərkibinin müəyyənləşdirilməsi, onların qarşıdakı beynəlxalq yarışlara hazırlanmasından ibarət olub.

## *Azərbaycan Boks Federasiyasının prezidenti məşqçilərlə görüşüb*



Azərbaycan Boks Federasiyasının (ABF) prezidenti Sahil Babayev Bakı və Sumqayıt şəhərlərində çalışan məşqçilərlə görüşüb.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, görüşdə boksun hazırkı vəziyyəti, daha da inkişaf etdirilməsi və kütləviləşməsi, həmçinin beynəlxalq təcrübədən yararlanaraq yüksək nailiyyətlərin əldə olunmasının yolları müzakirə edilib.

S.Babayev bildirib ki, hər bir uğura gedən yol çalışdırıcıların qurduğu sistemə bağlıdır. Çünki təməli onlar qoyur, müxtəlif yaş qrupları üzrə milli komandalar məhz müəllim-məşqçilərin əziyyətinin nəticəsində yetişən idmançılardan formalaşır.

Məşqçilər boksun inkişafı, klubların sayının, idmançıların təcrübəsinin artırılması, milli üçün ehtiyat qüvvənin yetişdirilməsi, bölgələrdə kütləviliyə nail olmaq, həmçinin seminarların keçirilməsi üçün fikir mübadiləsi apardılar.

Federasiya prezidenti görüş iştirakçılarına Məşqçilər Komitəsini formalaşdırmaq və onların köməyi ilə uğurlarımızı artırmaq üçün göstəriş və tapşırıqlarını verib.

ABF rəhbəri İdarə Heyətinə məşqçilər və boksçular üçün mükafatlandırma sisteminin yaradılması barədə də göstərişlərini verib.

## Boksçularımız Sofiyada rinqə çıxacaqlar



Aprelin 13-də Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa birinciliyi start götürəcək. 10 gün davam edəcək yarışda Azərbaycan millisi oğlanların mübarizəsində tam heyətlə qüvvəsini sınayacaq. Bakıda və Ərzurumda keçirilən təlim-məşq toplanışlarına əsasən baş məşqçi Elbrus Rzayev qitə birinciliyində Kənan Babayev (48 kq), Amin Məmmədzadə (51 kq), Kamil Babayev (54 kq), Arif Bayramov (57 kq), Aslan Quliyev (60 kq), Zaur Qəhrəmanov (63,5 kq), Səid Abdullayev (67 kq), Daniel Xolostenko (71 kq), Ənvər Babayev (75 kq), Sərxan Budaqov (80 kq), Fətəli İsmayılov (86 kq), Məmməd Quliyev (92 kq) və Səbuhi Əlizadəyə (+92 kq) şans verəcək. Komandaya rəhbərliyi İdarə Heyətinin üzvü Rövşən Hüseynov edəcək.

Qeyd edək ki, komandamız Avropa çempionatına Bakıda və Ərzurumda Türkiyə və Ələczair yığmaları ilə birgə hazırlaşıb.

Güləş

## Güləş Federasiyasının İcraiyyə Komitəsinin tərkibi formalaşıb

Azərbaycan Güləş Federasiyasının (AGF) növbədənkənar seçki ümumi yığıncağı keçirilib. Federasiyanın prezidenti Mikayıl Cabbarovun



sədrliyi altında keçirilən tədbirdə AGF-nin üzvləri iştirak ediblər.

Yığıncaqda federasiyanın İcraiyyə Komitəsinə yeni üzvlər səsvermə yolu ilə seçilib. Sərbəst güləş üzrə Olimpiya çempionu Namiq Abdullayev, yunan-Roma güləşi üzrə Olimpiya çempionu Fərid Mansurov və Vasif Məmmədov İcraiyyə Komitəsinə üzv seçiliblər.

Beləliklə, AGF-nin 5 nəfərdən ibarət İcraiyyə Komitəsində Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarov, vitse-prezident Namiq Əliyev, Namiq Abdullayev, Fərid Mansurov və Vasif Məmmədov yer alıblar.

Qeyd edək ki, İcraiyyə Komitəsinin yeni üzvü V.Məmmədov daha əvvəl Təhsil Nazirliyində məktəbdənkənar təhsil şöbəsinin müdiri vəzifəsində çalışıb.

* * *

Dünya Güləş Birliyi (UWW) 2023-cü ildə keçiriləcək böyüklər arasında Avropa çempionatına və 2024-cü ildə təşkil olunacaq U-23 Avropa çempionatına ev sahibliyi edəcək şəhərləri açıqlayıb.

UWW-nin İcraiyyə Komitəsinin martın 2-də qəbul etdiyi qərarlar qüvvəyə minib. Gələn il aprelin 17-dən 23-dək qitə birinciliyi Zaqrebdə keçiriləcək. Xorvatiyanın paytaxtı ilk dəfə böyüklər arasında Avropa çempionatına ev sahibliyi edəcək.

UWW-nin prezidenti Nenad Laloviç qurumun rəsmi saytına verdiyi açıqlamada Xorvatiya Güləş Federasiyasını etibarlı tərəfdaş adlandırıb və Zaqrebin yarış təcrübəsinin zəngin olduğunu bildirib.

2024-cü ildə isə güləş üzrə U-23 Avropa çempionatı Bakıda keçiriləcək.

"Bakının bu yarışa ev sahibliyi etməsi gələcəkdə beynəlxalq turnirlərin Azərbaycana qayıdacağından xəbər verir. Bakıda bu il yunan-Roma güləşi üzrə dünya kuboku keçiriləcək. Bu siyahıya U-23 Avropa çempionatının əlavə edilməsi onların təşkil etmək istədikləri böyük yarışların sayını artırır", - deyə Nenad Laloviçi bildirib.

Qeyd olunub ki, Bakıda keçiriləcək U-23 Avropa çempionatı 2024-cü il aprelin 8-dən 14-dək davam edəcək.

* * *

Türkiyənin Kahramanmaraş şəhərində sərbəst güləş üzrə gənclər arasında beynəlxalq turnir keçirilib. Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, "12 fevral" adlanan yarışda Türkiyə, Azərbaycan, Fransa və Qırğızıstandan olan sərbəst güləşçilər mübarizə aparıblar.

Milli komandamızın məşqçiləri Rövşən Hacıyev və Əşrəf Əliyevin rəhbərliyi altında Kahramanmaraşda xalçaya çıxan 14 güləşçidən




10-u fəxri kürsüyə qalxıb. Sabir Cəfərov (70 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Ramik Heybətov (61 kq), Əbülfəz Nəsirov (65 kq), Kənan Heybətov (70 kq), Səbuhi Əmiraslanov (79 kq) və Abdulcəlil Şabanov (92 kq) gümüş, Nurəddin Novruzov (57 kq), Ceyhun Allahverdiyev (61 kq), Namus Orucov (74 kq) və Fərid Cabbarov (86 kq) isə bürünc medal əldə ediblər. Yekunda 1 qızıl, 5 gümüş və 4 bürünc medal qazanan yığmamız komanda hesabında ikinci yeri tutub.

Qeyd edək ki, turnirdə beynəlxalq dərəcəli hakim Bəşir İsazadə ədaləti qoruyub.

## Şahmatçılarla görüş keçirilib

ABŞ-ın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə Azərbaycan Şahmat Federasiyasının baş katibi İlahə Qədimova və ikiqat Azərbaycan çempionu Günay Məmmədzadə ilə görüş keçirilib.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, beynəlxalq qrosmeysterlər şahmatın onların həyatındakı önəmli rolundan söhbət açıb, karyeraları barədə danışıblar. Qonaqlar şahmatla maraqlanan xanımlara lazımi tövsiyələrini verib və tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıblar.

## Azərbaycan birinci liqasına yekun vurulub

Kişi voleybolçular arasında Azərbaycan birinci liqası başa çatıb.

Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, həlledici görüşlərdə əvvəlcə bürünc medalçının adına aydınlıq gəlib. Üçüncü yer uğrunda görüşdə "Murov-2" və "Masallı" üz-üzə gəlib. Matç gənclərdən ibarət birincilərin üstünlüyü ilə başlayıb. İlk setdə 25:21 ilə qalib gələn "Murov-2" ikinci hissədə 20:25 hesabı ilə məğlub olub. Gənclər üçüncü setdə 25:22 hesabı ilə qalib gəlsələr də, dördüncü hissədə yenidən "Masallı" tarazlığı bərpa edib - 25:20. Gərgin mübarizə şəraitində keçən görüşün qalibi tay-brekdə müəyyən olunub. Sonuncu setdə daha az səhv edən "Murov-2" hissəni 18:16 hesabı ilə qazanaraq matçın qalibi olub - 3:2.

"Murov" voleybol klubunun idman zalında təşkil olunan finalda isə "Azərbaycan Ali Hərbi Məktəbi"nin komandası "Təhsil"lə qarşılaşıb. Qızıl medal uğrunda gedən mübarizənin də qalibi tay-breykdə müəyyənləşib. Beləliklə, rəqibinə qalib gələn "Təhsil" komandası 1 liqanın çempionu tituluna yiyələnib. "Azərbaycan Ali Hərbi Məktəbi" gümüş medalın sahibi, "Murov-2" isə çempionatın bürünc mükafatçısı olub.

Qeyd edək ki, birincilikdə 10 klub - "Həvəskarlar", "Murov", "Əlincə", "Veteranlar", "Ryuqa", "Aura", Taleh - A.T", "Azərbaycan Ali Hərbi Məktəbi", "Təhsil", "Masallı" mübarizə aparıb.

Cüdo

## Federasiya prezidenti məşqçilər və cüdoçularla görüşüb

Azərbaycan Cüdo Federasiyasının (ACF) prezidenti Rəşad Nəbiyev Sabirabad şəhərində Sabirabad və İmişli rayonlarını təmsil edən məşqçilər və cüdoçularla görüşüb.

Görüş zamanı ACF prezidentinə Sabirabad rayonunda 60, İmişli rayonunda isə 120-ə yaxın



gənc və yeniyetmənin cüdo idman növü ilə məşğul olmaları ilə bağlı məlumat verilib. Qeyd edilib ki, onların arasında son yarışda - 15 yaşa qədər yeniyetmələr arasında keçirilmiş region yarışlarında yer tutaraq Azərbaycan birinciliyinə vəsiqə qazanan idmançılar da var. Bununla yanaşı, İmişli rayonunun yetirməsi Səid Orucov 21 yaşa qədər gənclər arasında fevral ayının sonunda keçirilən Azərbaycan birinciliyində +100 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb.

Rəşad Nəbiyev qeyd edib ki, Azərbaycan Cüdo Federasiyasının əsas məqsədlərindən biri cüdonun daha da kütləviləşdirilməsi ilə uşaq, yeniyetmə və gənclərin həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyümələrinə dəstək göstərməkdir. Hər iki rayonda cüdonun inkişafı üçün böyük potensial olduğunu vurğulayan federasiya rəhbəri maddi-texniki bazanın təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarını verib, məşqçi-müəllimlərin uşaq və yeniyetmələrlə işlərini müasir tələblərə uyğun qurmaları üçün tövsiyələrini bildirib.

* * *

Azərbaycan Cüdo Federasiyası (ACF) Gəncə şəhərində cüdo mərkəzinin inşasını planlaşdırır. ACF-nin mətbuat xidmətindən verilən məlumata görə, bununla əlaqədar federasiya prezidentinin müşaviri Natiq Bağırov və baş katibi Rəşad Rəsullu Gəncə şəhərində olublar. Onlar Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşüb, cüdo mərkəzinin inşası ilə bağlı geniş müzakirələr aparıblar. Görüşdə, həmçinin Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Kamran Məhərrəmov, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov, Gəncə İctimai İştirakçılıq Məclisinin sədri Müzadil Həsənov da iştirak ediblər.

Görüşdə Azərbaycan Prezidentinin idmana olan xüsusi diqqət və qayğısından söz açılıb. Qeyd edilib ki, cüdo mərkəzinin inşası Gəncə şəhərində bu idman növünün inkişafına təkan olacaq.

Daha sonra federasiya nümayəndələri mərkəzin inşası üçün bir sıra ərazilərə baxış keçiriblər.

* * *

Özbəkistanın paytaxtı Daşkənddə yeniyetmələr arasında cüdo üzrə Asiya kuboku yarışı keçirilib. Altı ölkədən 312 idmançının iştirak etdiyi turnirdə Azərbaycanın 22 cüdoçusu qüvvəsini sınayıb. Cüdoçularımız turniri iki qızıl medalla başa vurublar. Komandamıza medalları cüdoçumuz Əbil Yusifov (66 kq) və Nahid Tarquliyev (73 kq) qazandırıb. 66 kq çəki dərəcəsində bütün görüşlərini qələbə ilə başa vuran təmsilçimiz Ə.Yusifov həlledici mərhələdə gürcüstanlı Mate Gvelesianini də məğlub edərək qızıl medala layiq görülüb.

73 kq çəki dərəcəsində tatami üzərinə çıxan N.Tarquliyev isə həlledici mərhələdə qazaxıstanlı Dosbol Balqabayı məğlub edib.

* * *

Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzində yeniyetmə cüdoçular (U-15) arasında Bakı şəhər birinciliyi keçirilib. Azərbaycan Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə 3 gün davam edən birincilikdə Bakı şəhərindən 52 klub, cəmiyyət və idman təşkilatlarından, ümumilikdə 674 oğlan və 62 qız cüdoçu 20 çəki dərəcəsində mübarizə aparıb.

Yarışın təşkilində əsas məqsəd perspektivli idmançıları müəyyən edərək onları U-15 yeniyetmələrdən ibarət milli komandaya cəlb etmək, kiçik yaşlı yeniyetmələr arasında idman vasitəsi ilə sağlam həyat tərzini formalaşdırmaq, cüdonun kütləvi təbliğinə və təşviqinə nail olmaqdan ibarət olub.

İlk yarış günündə qızlar arasında Fatimə Xairova (28 kq), Dərya Bıkova (40 kq), Aysun Məmmədova (52 kq) birinci yerləri tutublar. Oğlanların yarışında isə Rza Xəlili (34 kq), Əlimühsün Hacıyev (46 kq), Əhliman İsmayılov (60 kq) qalib adını qazanıblar.

İkinci yarış günündə qızlar arasında Yağmur Abdullayeva (32 kq), Leyla Ələkbərova (44 kq), Zəhra Hüseynzadə (57 kq) birinci yerə layiq görülüblər. Oğlanların yarışında isə Anar Quliyev (38 kq), Elnur Sultanov (50 kq), Amin Mehdiyev (66 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıblar.

Yarışın son günündə oğlanlar 42 kq, 55 kq, 73 kq, +73 kq, qızlar isə 36 kq, 48 kq, 63 kq, +63 kq çəki dərəcələri üzrə mübarizə aparıblar. Yekun nəticələrə görə, qızlar arasında Nərmin Məmmədli (36 kq), Nuranə Hacızadə (48 kq), Mələk Bayramlı (63 kq) birinci yerə layiq görülüblər. Oğlanların yarışında isə Xəzər Heydərov (42 kq), Əli Hümbətov (55 kq), Seyid Şərifov (73 kq), Səid Hüseynov (+73 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Qeyd edək ki, bu yaş qrupu üzrə növbəti turnir aprelin 16-17-də Sumqayıtda təşkil olunacaq.

* * *

Aprelin 23-24-də Xorvatiyanın Dubrovnik şəhərində cüdo üzrə Avropa kuboku yarışı keçiriləcək. Turnirdə iştirak etmək üçün 19 ölkədən 226 (149 kişi, 77 qadın) cüdoçu qeydiyyatdan keçib. Yarışda ölkəmizi 10 cüdoçu təmsil edəcək. Belə ki, komandamızın heyətində Xorvatiyada Nazir Talıbov (60 kq), İsmayıl



İbrahimov, Ruslan Paşayev, Elçin Hüseynov (66 kq), Nəriman Mirzəyev (73 kq), Zelim Tçkayev, Hasil Cəfərov (81 kq), Rüfət İsmayılov (90 kq), Adil Kərimli (100 kq), İmran Yusifov (+100 kq) medallar uğrunda mübarizə aparacaqlar.

## *Paralimpiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub*

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb. İ.Rəhimov ölkəmizdə Paralimpiya hərəkatının inkişafı sahəsində görülmüş işlər, əldə olunmuş nailiyyətlər və gələcək fəaliyyət barədə, eyni zamanda, cari ilin noyabrında keçiriləcək paracüdo idman növü üzrə dünya çempionatına hazırlıq barədə məlumat verib.

İlqar Rəhimov növbəti Yay Paralimpiya Oyunlarının Fransada keçiriləcəyini xatırladaraq, AMPK-nın bu oyunlara ciddi hazırlaşdığını bildirib. Eyni zamanda, komitə prezidenti Paris-2024-ə hazırlıq mərhələsində Fransanın ölkəmizdəki səfirliyi sıx əməkdaşlıq və birgə tədbirlərin keçirilməsinin vacibliyini qeyd edib.

Səfir Z.Qros öz növbəsində ölkəsinin Paralimpiya dəyərlərinə önəm verdiyini bildirib, AMPK ilə əlaqələrin daha da genişləndirilməsini vacib hesab edərək XVII Yay Paralimpiya Oyunlarına hazırlıq mərhələsində müxtəlif tədbir və görüşlərin keçilməsini dəstəklədiyini bildirib.

Daha sonra tərəflər gələcək əməkdaşlıq ilə bağlı bir sıra məsələləri müzakirə ediblər.

## AMADA Ədalətli İdman Günü ilə bağlı silsilə tədbirlər keçirib

***Aprelin 8-i dünyada Ədalətli İdman Günü kimi qeyd edilir. Ölkəmizdə idmanda ədalət prinsipinin və təmiz idman dəyərlərinin qorunmasından məsul qurum olan Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) aprel ayının ilk həftəsini "Ədalətli idman həftəsi" elan edib.***

AMADA-nın mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, "Ədalətli idman həftəsi" çərçivəsində AMADA tərəfindən təmiz idman dəyərlərini təbliğ edən silsilə tədbirlər həyata keçirilib.

Həftəyə AMADA-nın İdmançılar Məsləhətçi Komissiyasının sədri, ikiqat Paralimpiya çempionu İlham Zəkiyevin idman ictimaiyyətinə "8 aprel günündə həmrəy olaq, çünki bizə ədalətli qələbələr yaraşır" müraciəti ilə start verilib.

"Ədalətli yarış - təmiz qələbə" şüarı altında keçirilən "Ədalətli idman həftəsi"ndə ölkədə fəaliyyət göstərən idman federasiyaları və təşkilatları fəal iştirak edib, müxtəlif idman növlərini əhatə edən tədbirlər keçirilib. Belə ki, Azərbaycan Milli Paralimpiya Komitəsi, Peşəkar Futbol Liqası, Azərbaycan Voleybol Federasiyası, Azərbaycan Velosiped İdmanı Federasiyası, Azərbaycan Gimnastika Federasiyası və Azərbaycan Atletika Federasiyası AMADA-nın təşəbbüsünə qoşularaq idmanda ədalət prinsipinin təbliğinə öz töhfələrini veriblər.

Azərbaycan Premyer Liqasının oyunlarında ("Qarabağ" - "Səbail", "Qəbələ" - "Zirə") futbolçular əllərində "Play true day" (Ədalətli İdman Günü) və "Ədalətli yarış - təmiz qələbə" şüarları ilə meydana çıxıblar. Yüksək Liqa çərçivəsində "Neftçi" - "Murov" və Super Liqada isə "Murov" - "Azərreyl" voleybol oyunlarında da idmançılar həmin şüarlarla və əlamətdar günü təbliğ edən geyimlərdə meydana çıxıblar. Həmçinin Azərbaycan Velosiped İdmanı Federasiyasının dağ velosipedi üzrə açıq çempionatında da Ədalətli İdman Günü xüsusi şəkildə qeyd edilib. Yarışda idmançılar hamısı bu günün əhəmiyyətinə uyğun olaraq xüsusi geyimlərdə yarışıblar. Azərbaycan Gimnastika Federasiyası və Azərbaycan Atletika Federasiyasının idmançıları da Ədalətli İdman Gününün təbliğində fəal iştirak ediblər. Həyata keçirilən tədbirlər əsasında və idmançıların iştirakı ilə AMADA tərəfindən xüsusi videoçarx da hazırlanıb.

AMADA Ədalətli İdman Gününü geniş və yüksək səviyyədə qeyd edilməsinə hər zaman xüsusi əhəmiyyət verir. Çünki Azərbaycan bütün sahələrdə olduğu kimi idmanda da ədalətin tərəfdarıdır və hər zaman təmiz idman dəyərlərinə sadiq ölkədir. "Ədalətli idman həftəsi" çərçivəsində keçirilən bütün tədbirlərdə idmanda ədalət prinsipinin əhəmiyyəti və təmiz idman dəyərlərinin qorunması geniş təbliğ edilib. Həftə ərzində AMADA-nın sosial şəbəkələrdəki hesablarında bununla bağlı ardıcıl paylaşımlar edilib və ədalətli idman gününün əhəmiyyəti geniş izləyici kütləsinə çatdırılıb. Məqsəd dürüstlük, rəqibə və qaydalara hörmət, sağlam rəqabət kimi dəyərlərin geniş idman ictimaiyyəti arasında yayılmasıdır. AMADA təmiz idman həftəsində fəal iştirak edərək ədalətli idmana töhfə verən bütün idman qurumlarına və idmançılara təşəkkürünü bildirir.

Xatırladaq ki, Ədalətli İdman Günü təşəbbüsü ilk dəfə 2013-cü il aprelin 10-da Cənubi Amerikanın 17 ölkəsinin iştirakı ilə keçirilən Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) təhsil konfransında irəli sürülüb. Daha sonra isə bu təşəbbüs qlobal çağırışa çevrilib və bütün dünyada geniş qeyd edilib.

***Redaksiyanın poçtundan***

## *Lerikdə Vətən müharibəsinin şəhidi Əliqismət Yaqublunun xatirəsinə turnir keçirilib*



Lerik şəhərində Vətən mühaibəsinin şəhidi Əliqismət Yaqublunun xatirəsinə həsr olunmuş qaydasız döyüş üzrə yarış keçirilib. "Lerik FİCHT Club"unun təşkilatçılığı ilə keçirilən yarışın açılış mərasimində Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini H.Məlikov Lerik Rayon Heydər Əliyev Mərkəzinin direktoru H.Abbasov, Rayon Gənclər və İdman İdarəsinin rəisi N.İsaqov çıxış edərək şəhidin həyat və döyüş yolu barədə qürurla söhbət açıblar.

Məktəbli Elmin Zülfiyev şair Qəhrəman Əliyevin Əliqismət Yaqubluya həsr etdiyi "Cənab leytenant" şerini səsləndirib.

Şəhid atası Mükafat Yaqubov isə yarışın təşkilinə görə minnətdarlığını bildirib və turnirin başlanması üçün start komandasını verib.

Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışda birinci yeri tutan idmançılar Əliqismət Yaqublunun şəkli həkk olunmuş qara kəmərlə mükafatlandırılıblar. Şəhidin fotosu həkk olunmuş digər simvolik qırmızı kəmər isə onun atası Mükafat Yaqubova təqdim olunub.

Qeyd edək ki, ikinci Qarabağ müharibəsində Vətən torpağının azadlığı uğrunda qəhrəmanlıq göstərərək tarix yazan Xüsusi Təyinatlı Qüvvələrin zabiti, baş leytenant Əliqismət Yaqublu Lerik rayonunun Kələxan kəndində dünyaya göz açıb. Ə.Yaqublu Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa istiqamətində gedən şiddətli döyüşlərdə iştirak edib. O, 2020-ci il noyabrın 5-də Daşaltı kəndində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

Əliqismət Yaqublu ölümündən sonra Şuşanın, Xocavəndin və Kəlbəcərin azad olunmasına görə, "Vətən uğrunda" medallarına və "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Azərbaycan Velosiped İdmanı Federasiyasının yeni filialı açılıb



Ölkəmizdə velosiped idmanının inkişaf etdirilməsi və coğrafiyasının genişləndirilməsi istiqamətində görülən işlər çərçivəsində Azərbaycan Velosiped İdmanı Federasiyasının ilk regional nümayəndəliyi açılıb.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, bundan sonra İsmayıllı rayonunda velosiped idmanı üzrə bölmə fəaliyyət göstərəcək. İsmayıllı Olimpiya İdman Kompleksində yerləşən filialda yeniyetmə və gənclər peşəkar şəkildə idmanın bu növü ilə məşğul ola bilərlər.

Bundan başqa, Şamaxı Olimpiya İdman Kompleksinə baxış keçirilib və yaxın günlərdə burada da federasiyanın filialının açılması planlaşdırılır.

Regional nümayəndəliklərin açılmasında əsas məqsəd kütləviliyi təmin etmək, insanları ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan velosipeddən istifadəyə həvəsləndirmək, həmçinin yeniyetmə və gənclər arasında sağlam həyat tərzini təbliğ etməkdir.

Qeyd edək ki, Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev tərəfindən İsmayıllı filialına altı velosiped və ehtiyat hissələri hədiyyə olunub.

* * *

Azərbaycan Velosiped İdmanı Federasiyası "Sumqayıt" velosiped idmanı klubunun inkişafına və fəaliyyətinə dəstək olmaq məqsədi ilə əməkdaşlığa başlayıb.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, birgə işbirliyinin əsas məqsədi kütləviliyi təmin etmək, insanları ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan velosipeddən istifadəyə həvəsləndirmək, həmçinin yeniyetmə və gənclər arasında sağlam həyat tərzini təbliğ etməkdir.

Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev tərəfindən Sumqayıt klubuna velosipedlər və ehtiyat hissələri hədiyyə edilib.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Tanınmış idman mütəxəssisinin yeni kitabı işıq üzü görüb

"İgid" peşəkar güləş klubunun sədri, idman psixologiyası üzrə mütəxəssis Kazım Əliyevin yeni kitabı və diski çapdan çıxıb. "İdmanda özünüdərk" məşğələ tədrisi adlanan yeni kitab idman tədrisində ümumi nəzəri hazırlığı idmançıya məşğələ formasında tədris edilməyi təklif edir. Müəllif bu tədrislərlə idmançının mənəvi, əxlaqi və iradi dəyərlərə malik olmaqla həyatda və peşəsində ali, kamil və qüdrətli insan kimi yüksəlmiş olacağını bildirir. Nəticədə isə hər bir gəncin həyatda idmanla yüksəlişi və şəxsiyyət olaraq formalaşmasını təmin etmiş olur.




"İdmanda özünüdərk" kitabı məşqçilər, idmançılar, idman həkimləri və psixoloqları üçün maraqlı ola bilər. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

Qeyd edək ki, müəllif buna qədər müxtəlif illərdə "İdmançının qələbə psixologiyası", "Məşqçinin stolüstü kitabı"nı yazıb. O, həmçinin "İdmançının-xüsusi psixoloji hazırlığı", "İdmanda qeyri ənənəvi tədris", "Məşqçinin həftəlik dərs planı" DVD dərs vəsaitini hazırlayıb. K.Əliyev 2017-ci ildə "İdmanda şüurlu tədris" qeyri ənənəvi tədris üslubunu ölkənin idman ictimaiyyətinə təqdim edib.

# “Qarabağ” avrokuboklara vəsiqəni təmin etdi



Futbol üzrə Azərbaycan Premyer Liqasında XXII turun oyunları keçirilib. Turun açılış matçı Şamaxıda təşkil olunub. Şəhərin eyniadlı komandası son çempion “Neftçi”ni qəbul edib. Görüş qonaqların 2:1 hesablı qələbəsi ilə başa çatıb. FIFA referisi Elçin Məsiyevin idarə etdiyi qarşılaşmada ilk qol 10-cu dəqiqədə vurulub. “Neftçi”nin “Şamaxı”da icarədə olan futbolçusu Rəhman Hacıyev cərimə zərbəsini dəqiq yerinə yetirərək, müqavilə üzrə məxsus olduğu klubu məyus edib. Rəhman Hacıyev bu qolla “Şamaxı” futbol klubunun tarixinə düşüb. O, klubun tarixinə yeni ad altında ilk qolun müəllifi kimi adını yazdırıb. İlk hissə “Şamaxı”nın üstünlüyü ilə başa çatıb - 1:0.



Fasilədən sonra fəallığını artıran “Neftçi” 60-cı dəqiqədə bərabərlik qoluna imza atıb. Braziliyalı forvard Tiaqo Bezerra əkshücumu dəqiq zərbə ilə tamamlayıb. Matçın 72-ci dəqiqəsində isə onun həmyerlisi Ramon Maçado çoxgedişli kombinasiyadan sonra komandasının qələbə topunu vurub.

Bu, bölgə təmsilçisinin yeni adla çempionatda ilk matçı olub.

Bu nəticədən sonra “Neftçi” 41 xalla ikinci, “Şamaxı” 20 xalla 6-cı pillədə qərarlaşıb. Görüş tərəflərin ölkə çempionatlarındakı 70-ci oyunu olub. Əvvəlki 69 qarşılaşmanın 38-də paytaxt klubu, 16-da meydan sahibləri qələbə qazanıb. Topların nisbətində də “ağ-qaralar”ın aşkar üstünlüyü var - 111:67.

Günün ikinci matçında “Sabah” “Zirə”ni qəbul edib. “Bank Respublika Arena”dakı qarşılaşma meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə başa çatıb. “Sabah”ın qollarını 40-cı dəqiqədə Zurab Oçiqava, 58-ci dəqiqədə Coy Lens-Mikels, 90+5-ci dəqiqədə isə Xulio Sezar Rodriges vurub. “Qartallar”ın yeganə qoluna 48-i dəqiqədə Hamidu Keyta imza atıb.

Xallarının sayını 32-ə çatdıran “Sabah” 5-ci, 36 xala malik “Zirə” isə üçüncü pillədə qərarlaşıb.

Çempionatın lideri “Qarabağ” klubu “Sumqayıt”ın qonağı olub. “Kapital Bank Arena”da təşkil olunan matçda “köhlən atlar”ın 3:0 hesablı qələbəsi ilə başa çatıb. Görüşdə ilk qolu 16-cı dəqiqədə Kadi Borges vurub. İlk hissə bu hesabla başa çatıb. İkinci yarıda da hücumlarını davam etdirən Ağdam klubu 67-ci dəqiqədə Marko Veşoviçin qolu ilə fərqi artırıb. Oyunda son nöqtəni isə Leandro Andrade qoyub. Matçın 69-cu dəqiqəsində fərqlənən kabo-verdeli yarımmüdafiəçi yekun hesabı müəyyənləşdirib.

Bu qələbədən sonra xallarını 52-yə çatdıran “Qarabağ” zirvədəki yerini möhkəmləndirib və avrokuboklara vəsiqəni təmin edib. On dörd xalı olan “Sumqayıt” isə 7-ci pillədə qərarlaşıb.

Turun son oyununda “Qəbələ” autsayder “Səbail”in qonağı olub. “ASCO Arena”dakı qarşılaşma meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Paytaxt təmsilçisinin heyətində qolları 41-ci dəqiqədə Adil Nağıyev, 67-ci dəqiqədə Nikolas Raysel və 73-cü dəqiqədə İbrahim Aslanlı vurublar. Bu nəticədən sonra xallarını 14-ə çatdıran “Səbail” sonuncu pillədəki mövqeyində qalıb. “Qəbələ” isə 34 xalla 4-cüdür.

## Aprel döyüşlərinə həsr olunmuş mini futbol turniri keçirilib

Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin və “Binəqədi Gənclər Evi” sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Aprel döyüşlərinə həsr olunmuş məktəblilər arasında mini futbol turniri keçirilib.

Turnirin nəticəsinə əsasən 83 saylı məktəb-liseyin komandası birinci yeri, 297 saylı tam orta məktəbin komandası ikinci yeri, 217 saylı tam orta məktəbin komandası isə üçüncü yeri tutub.

Qaliblərin mükafatlandırılması mərasimində əvvəlcə Aprel döyüşlərində qəhrəmanlıq göstərərək şəhid olan hərbçilərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Sonra Binəqədi Rayon Gənclər və İdman İdarəsinin əməkdaşları Elvin Quliyev və Sahil Hüseynzadə tərəfindən qaliblərə müxtəlif dərəcəli medal və diplomlar təqdim edilib.



## Badmintonçuların respublika birinciliyinə yekun vurulub



1 saylı idman liseyində 2012-ci il təvəllüdlü və daha kiçik yaşlı oğlan və qızlar arasında badminton üzrə respublika birinciliyinə yekun vurulub. 5 kateqoriya üzrə qaliblərin müəyyənləşdiyi yarışda 31 oğlan və 26 qız iştirak edib. Oğlanların şəxsi yarışında Məhəmməd Hacızadə, qızlarda isə Banu İbrahimli birinci olublar. Oğlanların qoşa yarışlarında M.Hacızadə, Eldəniz Novruzov, qızların mübarizəsində isə B.İbrahimli, Həbibə Quliyeva, qarışıq qoşa yarışlarda isə M.Hacızadə və B.İbrahimli fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Azərbaycan Badminton Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən turnirin mükafatçıları diplom və medallarla təltif olunublar.

* * *

Azərbaycan Badminton Federasiyası (ABF) DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə əməkdaşlığa start verib.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, əməkdaşlıq çərçivəsində aztəminatlı, qazi və şəhid ailələrinin övladları, fiziki məhdudiyyətli şəxslər badminton oynayıblar.

Milli komandanın baş məşqçisi Morteza Validarvi tərəfindən keçirilən və mütəmadi xarakter daşıyacaq ustad dərslərinin məqsədi badmintona maraq oyatmaq, xüsusi diqqət və qayğıya ehtiyacı olan şəxslərin idmanla məşğul olmasına dəstək nümayiş etdirməkdir.

## Mahir Emreli “Dinamo Zaqreb”də ilk qolunu vurdu




Azərbaycan millisinin futbolçusu Mahir Emreli Xorvatiyanın “Dinamo Zaqreb” klubunda qol hesabını açıb. 25 yaşlı hücumçu səfərdə “Riyeka”ya qarşı keçirdikləri XXX tur matçında fərqlənib. 79-cu dəqiqədə rəqib qapısına yol tapan forvard hesabı bərabərləşdirib. M.Emreli oyuna 57-ci dəqiqədə, komandası 0:1 hesabı ilə geridə olduğu vaxt daxil olub. O, qolla yanaşı, 87-ci dəqiqədə sarı vərəqə alıb.

Matçın 89-cu dəqiqəsində isə Mahir Emrelinin üzünə dirsək zərbəsi endirən “Riyeka”nın futbolçusu Anton Kresiçə referi VAR sisteminə müraciət etdikdən sonra qırmızı vərəqə göstərib.

Görüş “Dinamo Zaqreb”in 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da Zaqreb təmsilçisi 29 oyundan sonra xalını 63-ə çatdırıb və ehtiyatda daha bir görüşünün olmasına baxmayaraq, liderliyə yüksəlib.

## Kikboksinq Federasiyasında yeni təyinat



Azərbaycan Kikboksinq Federasiyasının (AKF) Hakimlər Kollegiyasına sədr təyin olunub. Fəxrəddin Quliyev AKF-nin Hakimlər Kollegiyasının sədri təyin edilib. Bu münasibətlə AKF-nin prezidenti Orxan Əliyev ona vəsiqəsini təqdim edib.

Tədbirdə, həmçinin O.Əliyev martın 12-də WJF-19 turnirində erməni əsilli Gürcüstan idmançısı Qela Xoceliyana qalib gələrək kəmər qazanmış Məhəmməd İmanovla görüşüb və onu qələbə münasibətilə təbrik edib.

## FİFA prezidentindən dünya çempionatı ilə bağlı yeni təklif

FIFA-nın prezidenti Canni İnfantino futbol üzrə dünya çempionatının 3 ildən bir keçirilməsini təklif edib. C.İnfantino daha əvvəl mundialın 2 ildən bir təşkil olunması fikrini irəli sürmüşdü. Futbol ictimaiyyəti isə bunu narazılıqla qarşılamışdı. Bu dəfə isə isveçrəli funksioner turnirin 3 ildən bir keçirilməsini istəyir.



Onun yeni planına əsasən, ilk ildə 24 komandadan ibarət klublararası dünya çempionatı, növbəti ildə Avropa çempionatı və Amerika Kuboku kimi qitə birincilikləri, üçüncü ildə isə dünya çempionatının belə formatda təşkil olunması nəzərdə tutulub.

## UEFA klublar üçün vəsait ayıracaq

UEFA klublara futbolçularının Avro-2024 və digər yarışlarda iştirakı üçün 240 milyon avro vəsait ayıracaq. Bu barədə qurumun saytı məlumat yayıb. Bildirilib ki, UEFA bu məbləği oyunçuların Avropa çempionatının seçmə və final mərhələsində, həmçinin Millətlər Liqasının növbəti iki ildə çıxışı üçün klublar arasında bölüşdürəcək.

2020/2021-ci və 2022/2023-cü il Millətlər Liqası, həmçinin Avro-2024-ün seçmə mərhələsində futbolçuların iştirakı üçün klublara 100 milyon avro ödəniləcək. Futbolçuların Avro-2024-ün final turnirində iştirakının məbləği isə 130 milyon avrodan 140 milyon avroya qaldırılacaq.

Qeyd edək ki, Avro-2020-dən sonra UEFA 55 üzv assosiasiyanın 697 klubuna 200 milyon avro ödəyib.

# F U T B O L

# DÇ-2022: ehtiyat, iddia, risk və məqsəd

## Baş məşqçilər püşkatmanı özünəməxsus dəyərləndirdilər

***Bu ilin maraqla gözlənilən ən böyük idman hadisəsi heç şübhəsiz ki, Qətərdə təşkil olunacaq futbol üzrə dünya çempionatıdır. 32 komandanın iştirakı ilə 27 gün (21 noyabr-18 dekabr) davam edəcək çempionat bir sıra futbolsevərlərə yeniliklər vəd edir. Bu yeniliklərdən biri tarixdə ilk dəfə DÇ-nin payız-qış ərəfəsində təşkil olunmasıdır.***

***Artıq qruplar üzrə hansı komandaların hansı rəqiblərlə üz-üzə gələcəyi məlumdur. Qeyd edək ki, B qrupunda Ukraynadakı müharibə səbəbindən bu yığma komandanın təsnifat oyunu hələ də keçirilməyib. Uels millisi Ukrayna-Şotlandiya görüşünün qalibini gözləyir. Görüşlərin keçirilmə tarixi hələ ki, müəyyənləşməyib. D qrupunda Peru, Avstraliya və BƏƏ qitələrarası təsnifat matçının qalibinin adına hələ də aydınlıq gəlməyib. E qrupunda ya Kosta-Rika, ya da Yeni Zelandiya Qətərə yollanmaq imkanı əldə edəcək. D və E qrupundakı görüşlər iyun ayında təşkil olunacaq. Cütün müqəddəratını cəmi bir görüş həll edəcək ki, matçların hamısı Dohada keçiriləcək.***

***Qətər-2022-nin final mərhələsinin püşkatma mərasimindən sonra iştirakçı komandaların baş məşqçiləri maraqlı fikirlər səsləndiriblər. "Olimpiya dünyası" qəzeti həmin fikirləri oxuculara təqdim edir.***




### "Bura qədər çoxlu səhvlərlə gəlmişik"

***Lui Van Qal (Niderland yığma komandasının baş məşqçisi):***

- Püşkatmanın nəticəsi barədə hər hansı bir fikir demək asan deyil. Bu yığma komandalara qarşı heç bir oyunda iştirak etməmişəm. İki il bundan qabaq Seneqalda istirahətdə olmuşam. Ekvadora isə yolum düşməyib. Qətər ev sahibidir. Onların necə futbol oynadığı barədə məlumatım yoxdur. Biz final mərhələsinə qədər uzun bir yol qət etdik. Yığma komandamız dünya çempionatının final mərhələsinə birbaşa vəsiqə əldə etdi. Lakin bu mərhələdə çox diqqətli olmalıyıq. Bura qədər çoxlu səhvlərlə gəlmişik. Səhvləri təkrarlamaq yox, onları aradan qaldırmalıyıq.

### "Biz bu mübarizədən qalib kimi çıxmalıyıq"

***Qaret Sautqeyt (İngiltərə yığma komandasının baş məşqçisi):***

- Uzun müddət olardı ki, İngiltərə və İran kimi yığmalara qarşı matç keçirməmişdik. Hər iki komanda bizim üçün ciddi rəqib sayılacaq. Qrupdakı digər iştirakçı hələ ki, müəyyənləşməyib. Ola bilər ki, bu qrupa digər Britaniya təmsilçisi vəsiqə əldə etsin. Biz bu mübarizədən qalib kimi çıxmalıyıq. ABŞ yığmasından üstün olsaq, ən azı qrupdan rahat çıxa biləcəyik. Onların güclü və bizə tanış olan tanınmış oyunçuları var. Hər bir matça ehtiyatla yanaşacağıq.

### "Hər bir rəqibə hörmətlə yanaşırıq"

***Lionel Skaloni (Argentina yığma komandasının baş məşqçisi):***

- Bizim çox gözəl və etibarlı komandamız var. Rəqiblərimizdən nə şikayət edə bilərik, nə də razı qalırıq. Qrupda yalnız Meksikanı tanıyırıq. Pley-off mərhələsində İsveç kimi güclü yığmanı mübarizədən uzaqlaşdıran Polşanı ciddi rəqib hesab edirik. Səudiyyə Ərəbistanı millisi də təsnifat yarışlarında yüksək nəticə əldə edib. Hər bir rəqibə hörmətlə yanaşırıq. Lakin arxayınlaşmaq olmaz. Azarkeşlərimizə Qətərdə keçirilən dünya çempionatında final həyəcanı yaşatmağı düşünürük.

### "Biz də çempionluğa əsas iddialılardan biriyik"

***Didye Deşam (Fransa yığma komandasının baş məşqçisi):***

- Püşkatmadan sonra ən azı iki rəqibimizi tanıdıq. Danimarka kimi iddialı bir yığma ilə üz-üzə gələcəyik. Yəqin ki, azarkeşlər ötən il Avropa çempionatında bu komandanın nəyə qadir olduğunu gördülər. Tunis Afrikanı dünya çempionatında təmsil edəcək ən güclü yığmalardan biri sayılır. Digər rəqibimiz Peru, Avstraliya və yaxud BƏƏ millisi ola bilər. Olsun, biz də çempionluğa əsas iddialılardan biriyik. Yəqin ki, iştirakçıların əksəriyyəti bizimlə hesablaşmalı olacaq. Finala addım-addım irəliləyəcəyik.

### "Yaponiya yığması dünya çempionatlarında hər zaman çıxış edib"

***Hans-Diter Flik (Almaniya yığma komandasının baş məşqçisi):***

- Əvvəldən nəsə demək çətindir. Amma məqsədimiz çox böyükdür. Maraqlı rəqiblərimiz var. Yaponiya yığması dünya çempionatlarında hər zaman çıxış edib. Onların Bundesliqada çıxış edən xeyli futbolçusu var. Püşkatmadan əvvəl planlaşdırmışdıq ki, asiyalılarla yoldaşlıq matçında qüvvəmizi sınayaq. Artıq bu planımız baş tuta bilməz. İspaniya yığması ilə son dövrlərdə bir neçə dəfə üz-üzə gəlmişik. Həmin matçlarda fərqli nəticələr qeydə alınıb. Digər rəqibimiz ya Kosta-Rika, ya da Avtraliya olacaq. Kosta-Rika bizə çox yaxşı tanışdır. 2006-cı ildə bizim ölkədə keçirilən dünya çempionatının açılış matçında 4:2 hesablı görüşü xatırlayanlar var. Bir sözlə, çalışıb qrup mərhələsini keçməliyik.

### "İstənilən rəqibi məğlub etmək əzmindəyik"

Luis Enrike (İspaniya yığma komandasının baş məşqçisi):

- Əsas məqsədimiz yenidən dünya çempionu olmaqdır. İspanlar üçün yoldaşlıq matçı, dünya və Avropa çempionatı fərq etmir. İspaniya yığması hər bir yarışa qalibiyyət üçün çıxır. Ola bilər ki, bizdən güclü yığma komandalar olsun. Lakin istənilən rəqibi məğlub etmək əzmindəyik. Dünya çempionatına sürpriz bir heyətlə yollanmaq istəyirik. Lakin həmin vaxta qədər futbolçular bir sıra yarışlarda iştirak edəcəklər. Kimin necə olması həmin vaxt müəyyənləşəcək. Qrupda bütün rəqibləri əsas və ciddi hesab edirəm. Almaniya barəsində yüksək fikirdəyəm. Baş məşqçi Flikin gəlişindən sonra yığma daha da güclənib. Yaponiya yığması haqqında məlumatım hələ ki, yoxdur. Kosta-Rika və ya Avstraliya da zəif təsir bağışlamır. Onlardan yalnız biri rəqibimiz olacağı üçün bu barədə ikinci bir cümlə işlədə bilmirəm.

### "Qrupumuzda Avropanın iki ən güclü yığma komandası yer alıb"

***Hajime Moriasu (Yaponiya yığma komandasının baş məşqçisi):***

- Biz İspaniya yığma komandasını necə məğlub etməyi daha dəqiq Andres İnyestadan öyrənə bilərik. Axı o, hazırda bizim ölkədə, "Vissel Kobe"də baş məşqçilik edir. Məncə bu ən yaxşı variantdır. Təbii ki, bunları zarafatla dedim. Qrupumuzda Avropanın iki ən güclü yığma komandası yer alıb. Onlardan birini məğlub edib, mərhələ keçmək əsas nəticə ola bilər. İnanmıram ki, biz Almaniya və İspaniyaya asan təslim olaq. Digər rəqibimiz isə hələ ki, müəyyənləşməyib. Onlar da asan rəqib sayıla bilməz.

### "Mərakeş millisi ilə sıx bağlılığımız var"

***Roberto Martines (Belçika yığma komandasının baş məşqçisi):***

- Ən çətin qrupda çıxış edəcəyik. Hazırlıq üçün çox vaxtımız var. Lakin biz hələ Millətlər Liqasında da çıxış edəcəyik. Həmin yarışdan sonra əsas heyəti formalaşdırıb, Qətərə yollanacağıq. Rəqiblərimiz barəsində yüksək fikirdəyəm. Mərakeş millisi ilə sıx bağlılığımız var. Belə ki, vaxtilə bizim yığmamızda çıxış edən Maruan Fellaini və Naser Şadli Mərakeş əsilli futbolçular olub. Kanada millisi uzun illərdən bəri dünya çempionatına vəsiqə əldə edib. Onlar daha həvəsli və idealı bir heyətə malikdirlər. Təsnifat mərhələsindəki çıxışları bu sözləri deməyə imkan verir. Xorvatiya isə təcrübəli futbolçulardan ibarət bir kollektivə malikdir. Biz asan rəqib olmadığımız üçün onlara da asan rəqib kimi yanaşa bilmərik.

### "Hər qrupun özünəməxsus çətinlik dərəcəsi var"

***Tite (Brazilya yığma komandasının baş məşqçisi):***

- Nə "ölüm", nə də "həyat" qrupu deyilən bir anlam yoxdur. Hər qrupun özünəməxsus çətinlik dərəcəsi var. Serbiya və İsveçrə asan rəqib sayılmır. Onlar Portuqaliya və İtaliya kimi yığmaları məğlubiyyətə uğrada bilən millilərdir. O ki, qaldı Kameruna, onlar Afrikanın ən güclü yığması hesab olunur. Bir sözlə, qrupda favorit bir komandadan danışmaq çox tezdir.

***Səhifəni hazırladı:***
***Anar Əhmədov***

# Dünya idmanı



## Meyvezer nümayiş xarakterli döyüş keçirəcək



Amerikalı boksçu Floyd Meyvezer mayın 14-də Dubayda "The Global Titans Series"in himayəsi altında keçiriləcək yarışda nümayiş xarakterli döyüş keçirəcək. Bu barədə qurumun mətbuat xidməti məlumat yayıb. Bildirilir ki, səkkiz raunddan ibarət qarşılaşmada F.Meyvezerin rəqibi həmyerlisi Don Mur olacaq.

Qırx beş yaşlı F.Meyvezer bütün zamanların ən çox qazanan boksçusu hesab olunur. Filippinli Menni Pakyao ilə 2015-ci il mayın 2-də baş tutan döyüşə görə Meyvezer boks tarixində rekord qonorar - 210 milyon dollar, irlandiyalı Konor Makqreqorla görüşə görə isə qeyri-rəsmi məlumatlara görə, 275 milyon dollar qazanıb. "Forbes" jurnalı 2018-ci ilin iyul ayında boksçunu ən çox qazanan məşhurlar siyahısında birinci yerə layiq görüb.

## İngilis futbolçu hərraca müraciət edib



Dieqo Maradonanın forması "Sotheby's" hərrac evi tərəfindən hərraca çıxarılıb.

Sözügedən formanı futbolçu 1986-cı il dünya çempionatında İngiltərə millisinə qarşı əllə qol vurduğu oyunda geyinib. Formanın dəyəri 5,2 milyon dollar olaraq qiymətləndirilir. Hərraclar 20 aprel-4 may tarixlərində keçiriləcək.

Qeyd edək ki, Dieqo Maradonanın futbol tarixinə "Tanrının əli" kimi düşən qolunu vurduğu görüşün sonunda futbolçu formasını İngiltərə millisinin oyunçusu Stiv Hocla dəyişib. Sözügedən forma son 35 ildə məhz S.Hoca məxsus olub.

## Döyüşçülərə bonuslar bitkoinlə ödəniləcək

Mütləq Döyüş Çempionatı (UFC) döyüşçülərə bonusları bitkoinlə ödəyəcək. Bu barədə qurumun mətbuat xidməti məlumat yayıb. Məlumatda qeyd edilib ki, mükafat UFC prezidenti Dana Uayt tərəfindən təqdim ediləcək. Bonuslar, ümumilikdə 10, 20 və 30 min dollar məbləğində olacaq.



Ronaldo əsəblərinə hakim ola bilmədi

İngiltərənin "Mançester Yunayted" klubunun futbolçusu Kriştiano Ronaldo "Everton"la Premyer Liqa matçından sonra sındırdığı telefona görə azarkeşdən üzr istəyib. Bu barədə 37 yaşlı hücumçu şəxsi instaqram hesabında yazıb. "Qırmızı şeytanlar"ın 0:1 hesabı ilə məğlub olduğu səfər qarşılaşmasının ardından Ronaldo paltardəyişmə otağına yollandığı vaxt azarkeşin əlindən vuraraq, telefonunu yerə salıb. Portuqaliyalı forvard belə anlarda emosiyalara hakim olmağın heç də həmişə asan olmadığını bildirib: "Bununla belə, biz hər zaman hörmət, dözüm nümayiş etdirməli, gənclərə nümunə olmalıyıq. Çılğınlığıma görə üzr istəyir, ədalət və idman prinsiplərinə sədaqət əlaməti olaraq, mümkündürsə, həmin azarkeşi "Old Trafford" stadionundakı oyunumuza baxmağa dəvət edirəm".


## olimpnews.az - sizin saytınız





## "Ferrari" İtaliyaya qalib kimi yollanır



Avstraliyanın Melburn şəhərindəki "Albert Park"da keçirilən Formula 1 Avstraliya Qran-Prisinin qalibi müəyyənləşib. Gərgin idman mübarizəsi şəraitindən keçən yarışda "Ferrari"nin pilotu Şarl Lekler birinci olub. "Red Bull"un meksikalı pilotu Serxio Peres yarışı ikinci, "Mercedes"in britaniyalı sürücüsü Corc Rassel isə üçüncü pillədə başa vurublar. Ş.Lekler karyerasında ilk dəfə "Böyük dəbilqə"yə sahib olub. Belə ki, monakolu pilot yarışa pouldan start verib və yürüşə startdan sonadək liderlik edib. Ş.Lekler, həmçinin Avstraliya Qran-Prisində ən yaxşı dövrənin sahibidir və o, mövsümdə ikinci qələbəsini qazanıb.

C.Rassel "Mercedes"in heyətində ilk dəfə podiuma qalxıb.

Pilotların sıralamasına 71 xalla Ş.Lekler başçılıq edir. C.Rassel 37 xalla ikinci, S.Peres isə 33 xalla üçüncü pillədə yer alır.

Növbəti yarış iki həftə sonra İtaliyada təşkil olunacaq. İmolada keçiriləcək yürüşdən əvvəl sprint yarışı baş tutacaq.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19